# Bakıda Avropa Olimpiya hərəkatının tarixində yeni səhifə yazılır

**"Bakı - 2015" ilk Avropa Oyunları dünya mediasının əsas mövzularından biridir. Xarici ölkələrin jurnalistləri idmanseverlərə yarışların qaliblərinin, məşqçilərin və idman klublarına rəhbərlik edən şəxslərin Bakıda Avropa Oyunlarının təşklili, gedişi, eləcə də Azərbaycan haqqında təəssüratlarına dair maraqlı məlumatlar təqdim edirlər. Azərbaycanın paytaxtında irimiqyaslı idman yarışlarının keçirilməsi üçün yüksək standartlara malik idman obyektləri, infrastruktur olmasına böyük diqqət ayırırlar. Təhlilçilərin fikrincə, ilk Avropa Oyunları Azərbaycan və qitə üçün yeni səhifə açıb. Avropa Oyunları qitədə ilk dəfə keçirilir. Bu, çox böyük uğurdur. Bu, həm də Azərbaycanın Avropanın idman xəritəsində çox mühüm ölkə olduğunu göstərir.**

İlk Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban xanım Əliyevanın qeyd etdiyi kimi, bu möhtəşəm bayram müstəqil Azərbaycanın, hər bir Azərbaycan vətəndaşının qələbəsidir. Müstəqillik illərində əldə etdiyimiz uğurlar və nailiyyətlər nəticəsində bu gün burada, gözəl Bakıda Avropa Olimpiya hərəkatının tarixində yeni səhifə yazılır.

Dünya mətbuatı Bakıda ilk Avropa Oyunlarının ən yüksək səviyyədə təşkili və keçirilməsi barədə məqalələr dərc etməkdə davam edir. "Bakı - 2015" birinci Avropa Oyunlarının işıqlandırılmasına geniş yer verən Rusiyanın "Moskovskiy Komsomolets" nəşri yazır ki, bütün digər ölkələrin təmsilçiləri kimi, Rusiya idmançıları da yarışlarda fəal iştirak edirlər. İdman obyektlərinin təhlükəsizliyi tam təmin olunub. Bakıda güclü nəzarət hökm sürür. Azarkeşlər və könüllülərin təbliği xüsusi qeyd olunmalıdır. Bu oyunlar həm də ona görə əhəmiyyətlidir ki, qaliblər "Rio - 2016" XV Yay Olimpiadasına vəsiqə qazanacaqlar.

Bakının önəmli bir idman erasına qədəm qoyduğu, bu şəhərin Avropanın ən möhtəşəm idman tədbirlərinin keçirilməsi üçün potensialının böyük olduğunu vurğulayan İtaliyanın "Goal" saytında yerləşdirilən reportajda göstərilir ki, Azərbaycan Avropa Oyunlarına yüksək səviyyədə ev sahibliyi edir. Bununla da bu ölkə önəmli idman tədbirlərini təşkil etmək iqtidarında olduğunu bir daha təsdiqləyir.




"Bakı - 2015" brendinin artıq Avropanın idman markasına çevrildiyi fikrini yayan Rusiyanın "sports.ru" portalında verilən məqalədə deyilir ki, Bakının köhnə qitənin tarixində ilk dəfə keçirilən Oyunlara yüksək səviyyədə ev sahibliyi etməsi ilə beynəlxalq idman ictimaiyyətinin və kommersiya dairələrinin yarışlara marağı daha da artıb. Nəinki Avropada, bütün dünyada 120-dən artıq ölkədə canlı yayımlanan bu innovativ multi-idman turnirinin kommersiya uğurları da az deyil. Yarışlara bilet satışında da heç bir problem yoxdur. Oyunların bağlanış mərasiminə artıq demək olar ki, bütün biletlər satılıb. Avropa Oyunlarının rəsmi mağazalarında "Bakı - 2015" məhsullarına, xüsusilə Oyunların rəmzlərinə və müxtəlif aksesuarlara böyük maraq var. Mağazalardan birinin satış menecerinin sözlərinə görə, ən çox satılan isə Azərbaycan bayrağıdır.

**(davamı 7-ci səhifədə)**

# Bakıda Avropa Olimpiya hərəkatının tarixində yeni səhifə yazılır

**(əvvəli 1-ci səhifədə)**

“Bakı - 2015” birinci Avropa Oyunlarında boks çox yüksək səviyyədə — kişilərin mübarizəsində 10 çəki dərəcəsi, qadınların mübarizəsində isə 5 çəki dərəcəsi üzrə təmsil olunub. Halbuki Olimpiya Oyunlarında qadınlar 3 çəki dərəcəsi üzrə mübarizə aparırlar. Mən bundan olduqca məmnunam, — deyən Beynəlxalq Boks Federasiyasının prezidenti, Beynəlxalq Olimpiya Komitəsinin (BOK) üzvü Çin-Kuo Vu Fransanın “francsjeux.com” saytına müsahibəsində bildirib ki, 1988-ci ildə Seulda keçirilən Olimpiya Oyunlarından bəri bütün Oyunların açılış mərasimlərində iştirak etmişəm. Amma Bakıda keçirilən açılış mərasimi mənim ən sevdiklərimdən biri oldu. Təşkilatçılar yüksək səviyyədə yeni texnologiyalardan istifadə edərək Olimpiya ruhunu və Azərbaycan mədəniyyətini tamaşaçılara çatdırmağı bacardılar. Burada hər şey nəzərə alınıb. Avropa Oyunlarından sonra Azərbaycan hər hansı mühüm beynəlxalq idman tədbirinə, o cümlədən Olimpiya Oyunlarına ev sahibliyi edə bilər.

Birinci Avropa Oyunları barədə xəbərlərə geniş yer ayıran dünya mediasında, o cümlədən Türkiyənin “NTV Spor” kanalında, “Haberler.com” portalında, “Habertürk.com” saytında, Britaniyanın gündəlik “London Evening Standart” qəzetində, ABŞ-ın “The Washington Post”, “Bristol Herald Courier” qəzetlərində, “Getty İmages” foto agentliyi saytında, Almaniyanın məşhur “Deutsche welle” media agentliyində, İtaliyanın “Opimione Pubblica”, “Avvenire” xəbər saytlarında verilən məqalə və reportajlarda bildirilir ki, 2016-cı və 2020-ci illər Olimpiya Oyunlarına ev sahibliyi etmək üçün namizədliyini irəli sürmüş Azərbaycan ilk Avropa Oyunlarında əldə etdiyi uğurlara əsaslanaraq yenidən bunun üçün şans qazanıb. Belə ki, Azərbaycan 2024-cü il Olimpiya Oyunları üçün iddiaçılardan ola bilər.

**Şükür ƏLİZADƏ,**
**“Respublika”.**